# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qəbələ rayon əhalisinə

# TƏBRİKİ

**Əziz və hörmətli qəbələlilər!**

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə bu gözəl bayram günlərində ən xoş arzularımı bildirirəm.

Artıq 2014-cü il tarixə qovuşur. Qeyd edilməlidir ki, 2014-cü il rayonumuzun hərtərəfli inkişafı üçün uğurlu, yaddaqalan il olmuş, qarşıya qoyulan bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2014-cü ildə davamlı sosial-iqtisadi inkişafla tanış olmaq məqsədilə iki dəfə Qəbələdə rəsmi səfərdə olmuşdur. Qəbələlilər üçün bu çox əlamətdar hadisə idi. Onun müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində həyata keçirilən geniş miqyaslı islahatlar, yeni infrastruktur layihələri, aparılan tikinti-quruculuq, abadlıq və bərpa işləri, hərtərəfli sürətli iqtisadi tərəqqi hər birimizdə fərəh və qurur hissi doğurur. İldən-ilə artan uğurlarımız, ölkəmizin sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf xəttinin ölkə Prezidenti tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsidir.

Əvvəlki illərdə olduğu kimi, 2014-cü il də bütün Azərbaycan üçün, o cümlədən Qəbələ rayonu üçün əlamətdar il olmuşdur.

Qəbələdə aparılan geniş yenidənqurma, abadlıq işləri, rayonun turizm infrastrukturunun genişləndirilməsi qısa müddətdə rayonun simasını tamamilə dəyişmişdir. Qəbələ nəinki ölkəmizdə, eləcə də dünyada artıq unikal turizm məkanı kimi şöhrət qazanmaqdadır. Bütün bunlar rayonda həyat səviyyəsinin yüksəlməsinə xidmət etməklə yanaşı, həm də rayonun əhalisinə mənəvi rahatlıq gətirir.

Beynəlxalq mədəniyyət mərkəzinə çevrilməkdə olan Qəbələnin son illər beynəlxalq forumlara, musiqi festivallarına, təsviri sənət sərgilərinə və idman yarışlarına ev sahibliyi etməsi rayonumuzun dünya miqyasında tanınmasını təmin edir.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi qayğı və diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyən edilməsi onu deməyə əsas verir ki, 2015-ci ildə nailiyyətlərimiz daha da artacaq, respublikamızın füsunkar bölgəsi olan Qəbələ daha da abadlaşacaq, əhalinin rifahı gündən-günə yüksələcəkdir.

**Əziz qəbələlilər!**

Sizə rayonumuzun sürətli sosial-iqtisadi inkişafı naminə qarşımızda duran mühüm vəzifələrin həyata keçirilməsində yeni-yeni uğurlar arzulayır, sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə ürəkdən təbrik edir, hər birinizə uzun ömür, cansağlığı, bütövlükdə ailələrinizə xoş əhvali-ruhiyyə, səadət, əmin-amanlıq və firavanlıq diləyirəm.

# Rayon icra hakimiyyətinin şura yığıncağında

Dekabrın 18-də rayon icra hakimiyyəti başçısı yanında şura yığıncağı qış mövsümü ilə əlaqədar xidmət təşkilatlarının həyata keçirəcəyi əlavə tədbirlər barədə məsələ müzakirə etmişdir.



Şura yığıncağında rayon icra hakimiyyəti başçısı yanında şuranın üzvləri, inzibati ərazi nümayəndələri, idarə, müəssisə, təşkilat və turizm strukturlarının rəhbərləri iştirak etmişlər.



Tədbiri rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev açmışdır. Natiq qışa hazırlıqla bağlı bu ilin sentyabrında müzakirələr aparıldığını onunla bağlı xidmət təşkilatlarına, eləcə də rayonun bütün idarə, müəssisələrinə hazırlıq işlərinin yerinə yetirilməsi istiqamətində müvafiq tapşırıqların verildiyini qeyd etdi. Lakin qış mövsümünün başlanması ilə əlaqədar əlavə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğunu bildirdi.

Sonra xidmət təşkilatlarının rəhbərlərinin gördükləri işlər barədə məlumatlar dinlənildi.

Məsələ ətrafında çıxış edənlərdən qaz istismar idarəsinin rəisi Sübhi Bayramov, korroziyaya uğramış turbaların təmir və dəyişdirildiyini, yeni qaz tənzimləyici şkafların quraşdırıldığını, bəzi vətəndaşların müraciətləri əsasında sayğaclarının dəyişdirildiyini bildirdi. Həmçinin qeyd etmişdir ki, müəssisə qış mövsümü ilə əlaqədar gücləndirilmiş iş rejimində, yəni 24 saat işləyir.

Mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov qeyd etmişdir ki, xəstəxana və ambulatoriyalarda qışa hazırlıqla bağlı tədbirlər görülmüşdür. Qaz xətləri yoxlanılmış, transformatorlara baxış keçirilmişdir. Təcili yardım maşınları saz vəziyyətə gətirilmişdir. Növbətçilik cədvəlləri tutulmuş, növbətçi briqadalar yaradılmışdır.

Təhsil şöbəsinin müdiri Oqtay Hacıyev bildirdi ki, xüsusi qızdırıcı sistemi olan məktəblərin qazanxanaları yoxlanılıb, təmirə ehtiyacı olanlarda təmir işləri görülüb. İsitmə sistemi odun olan məktəblərə yeni peç verilmiş, odun tədarükü görülmüşdür. Məktəblərdə qeyri-standart istilik avadanlıqlarından istifadə qadağan edilmişdir.

Digər xidmət təşkilatlarının rəhbərləri də çıxış edərək qışa hazırlıqla bağlı görülən işlər barədə məlumat vermişlər.

Şura yığıncağı müvafiq qərar qəbul etmişdir.

Şura yığıncağını rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev yekunlaşdırmışdır. O, qərardan irəli gələn məsələlərin həlli istiqamətində müvafiq idarə və müəssisə rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Dünya Azərbaycanlılarının milli birlik missiyası

XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, «sərhəd hərəkatı» adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

1990-cı il noyabrın 3—5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan—Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il həmrəylik günü kimi qeyd edilməsi zəruriyyəti irəli sürüldü. Bütün bunları nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabrın «Dünya Azərbaycanlılarının Həmrəylik Günü» elan edilməsi qərara alındı. Xatırlatmaq lazımdır ki, ulu öndərin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də qərara gəldi ki, hər il dekabrın 31-i dünyada yaşayan azərbaycanlıların həmrəylik günü kimi qeyd edilsin. Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etmiş və xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparmağa başlanmışdır.

Dünya azərbaycanlılarının konkret milli ideya ətrafında sıx birləşdirməsini irəli sürən ulu öndər Heydər Əliyev 1993—2003-cü illərdə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, onların tarixi vətənlə əlaqələrinin genişlənməsinə çalışmışdır.

(Ardı 4-cü səhifədə).